## *DƏRSDƏNKƏNAR İŞ*

UOT 373.3/5.

***Aynur Elyaz qızı Allahverdiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# DƏRSDƏNKƏNAR TƏDBİRLƏRDƏ SƏNƏDLİ MATERİALLARLA İŞİN TƏŞKİLİ

***Айнур Эльяз гызы Аллахвердиева***
*Азербайджанский Государственный Педагогический Университет*

# ОРГАНИЗАЦИЯ РАБОТЫ С ДОКУМЕНТАЛЬНЫМИ МАТЕРИАЛАМИ ВО ВНЕУЧЕБНЫХ МЕРОПРИЯТИЯХ

***Aynur Elyaz Allahverdiyeva***
*Azerbaijan State Pedagogical University*

# ORGANIZATION OF WORK WITH DOCUMENTARY MATERIALS IN EXTRACURRICULAR ACTIVITIES

**Xülasə:** Məqalədə şagirdlərin tarixi bilik və bacarıqlarını inkişaf etdirmək üçün dərsdənkənar tədbirlərdə sənədli materiallarla işin effektiv metod və qaydaları təhlil edilmiş, sənədli materiallarla işin əhəmiyyəti göstərilmişdir. Həm sinifdənxaric, həm də məktəbdənkənar tədbirlərdə sənədlərlə işin səmərəli yolları nəzərdən keçirilmişdir.
***Açar sözlər:*** *tarix təlimi, tarixi sənəd, dərsdənkənar iş, məktəbdənkənar iş, sinifdənxaric iş*

**Резюме:** В статье были проанализированы эффективные методы и правила работы с документами во время внеклассных мероприятий с целью повышения исторических знаний и навыков учащихся, а также важности работы с документальными материалами. Были рассмотрены эффективные способы работы с документами во время проведения как внеурочных, так и внешкольных мероприятий.
***Ключевые слова:*** *преподавание истории, исторический документ, внеурочная работа, внешкольная работа, внеклассная работа*

**Summary:** The article analyzes effective methodologies and procedures for documentary materials in extracurricular activities to enhance students' historical knowledge and skills, and highlight the importance of work with documentary materials. Effective ways to work with documents at both classroom and out-of-school activities were reviewed.
***Keywords:*** *History teaching, historical document, extracurricular work, out-of-school work ,out-of-class work*

Böyüməkdə olan gənc nəslin inkişafı, təhsili və tərbiyəsi üçün keçmiş nəsillərlə ünsiyyət, mədəni və tarixi yaddaşın formalaşması son dərəcə vacibdir. Bir şagirdin bu hissləri duyması üçün lazım olan məlumatları oxumaq, görmək və ya eşitmək kifayət deyil, zamana, dövrə toxunmaq lazımdır. Bu isə sənədləri və əsərləri öyrənməklə, araşdırmaqla mümkündür.

Tarix və mədəniyyət sahəsindəki nəzəri bilikləri və praktiki bacarıqları öyrənən şagirdlər keçmişə hörmət qazandırırlar, qalıqlarla ehtiyatlı davranırlar, vətənpərvərlik duyğusunu inkişaf etdirirlər və tarixi, maddi, bədii və mədəni dəyərləri digər nəsillər üçün qoruyub saxlayırlar.

Dərslərin çoxu praktik fəaliyyətlərə yönəlmişdir – müstəqil yaradıcı axtarış, şagirdlərin birgə fəaliyyəti. Öz yaradıcılıq tədqiqat layihəsini yaratmaqla, şagirdlər öz qabiliyyətlərini ortaya qoyurlar, özlərini ifadə edirlər və özlərini so-

sial cəhətdən faydalı və şəxsən əhəmiyyətli fəaliyyət növlərində həyata keçirirlər.

Bu məqalənin məqsədi şagirdlərin tarixə aid biliklərini dərinləşdirmək üçün tarixi sənədin anlaşılması və tarixin öyrənilməsində tarixi sənədlərin araşdırılması ilə bağlı rolunu formalaşdırmaqdır.

Tarix təlimində sənədli materiallar üzərində iş həm dərs prosesində, həm də dərsdənkənar tədbirlərdə aparıla bilər. Dərsdənkənar işlər sinifdənxaric və məktəbdənkənar olmaqla iki hissəyə bölünür.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.06.2016-cı il tarixli, 436 nömrəli əmrinə 9 nömrəli əlavə Tədris planına dair qeydlərində dərsdənkənar tədbirlərin əhəmiyyəti belə şərh edilmişdir: "Dərsdənkənar məşğələlər meyil və maraqları nəzərə alınmaqla şagirdlərin ümumi dünyagörüşünün inkişafına, şəxsiyyəti formalaşdıran həyati bacarıqlara daha dərindən yiyələnmələrinə, ayrı-ayrı sahələr üzrə məlumatlarının genişlənməsinə yönəldilir"(1).

Prof. M.M. Əmirov isə qeyd etmişdir ki, dərsdənkənar tədbirlərdə "tədqiqat işi elementlərindən istifadə etməklə şagirdlərdə intellektual və praktik bacarıqların formalaşmasına geniş imkanlar yaranır" (2). Məhz dərsdənkənar tədbirlərdə sənədli materiallarla işin təşkili zamanı da tədqiqat işi elementlərindən geniş istifadə olunur.

Dərsdənkənar tədbirlərdə sənədli materiallarla işin təşkili zamanı şagirdlərlə kütləvi, qrup və fərdi formada iş aparmaq olar. Sənədlərlə iş müəllimin tapşırığı, nəzarəti, rəhbərliyi altında aparılır. Müəllim fərdi halda şagirdə hər hansısa bir mövzuya aid sənədləri müstəqil axtarıb tapmaq, yaxud da tapşırılmış sənədi müstəqil tədqiq etməyi tapşıra bilər. Qrup halında iş fənn dərnəkləri və sinifdənxaric oxu zamanı aparılır. Tarix dərnəklərində sənədli materialları daha dərindən təhlil etmək olar. Məsələn, IX sinif Azərbaycan tarixi kursunda dərslikdə 16 maddədən ibarət olan "Türkmənçay" müqaviləsinin bir neçə bəndi verilmişdir. Dərnəkdə şagirdlər müqavilənin bütün bəndlərini ətraflı araşdırıb, öz subyektiv və obyektiv fikirlərini diskussiya formasında bildirə bilərlər. Yaxud da sinifdənxaric oxu zamanı konkret mövzuya aid sənədli mənbələrin şagirdlər tərəfindən tapılması və müzakirəsi təşkil oluna bilər.

Dərsdənkənar tədbirlərin digər forması olan kütləvi işlər zamanı da tarixə dair sənədli materialların tədqiqini aparmaq olar. Misal olaraq mübahisəli tarixi hadisələrə həsr edilmiş disputları, müzakirələri, tarixi mövzuda söhbətləri, tarixi yerlərə ekskursiyaların təşkili, şagird konfranslarını, dəyirmi masa ətrafında görüşləri göstərmək olar. Bütün bu sadalanan dərsdənkənar iş formalarının təşkili zamanı "...şagirdlərlə də sənədli materiallar üzərində iş aparmaq, müxtəlif sənədləri araşdırmaq və əlaqələndirmək, sənədin mətni üzərində iş təşkil etmək, mətnin məzmununu mənimsəmək, sənədə əsasən hadisənin səbəb-nəticə əlaqələrini tapmaq, mübahisəli mövzuların sənədlərə əsasən əsaslandırılması bacarığı formalaşdırılır" (3, s. 98).

Şagirdlərin dərsdənkənar iş zamanı əldə etdikləri biliklərin nəticəsi üç səviyyəyə ayrılır:

Nəticələrin birinci səviyyəsi sosial informasiyanın şagirdlər tərəfindən əldə edilməsi, məlumatların mənbədən alınması və işlənməsi. Tarixi sənədin növünü müəyyənləşdirmək, birbaşa məlumatların çıxarılması, mənbənin müxtəlif hissələrini şərh etmək, hadisənin faktlarını və versiyasını işıqlandırmaq, əsas səbəb əlaqələrini müəyyən etmək: səbəblər, motivlər, nəticələr. Müstəqil işin növləri: müstəqil oxumaq və sənəd haqqında söhbətə iştirak, düşüncələrin, tezislərin, "açar sözlər"in yerləşdirilməsini təsdiq edən məlumatların seçilməsi, mənbəyə olan suallar.

Nəticələrin ikinci səviyyəsi şagirdlərin cəmiyyətimizin əsas dəyərlərinə, ümumilikdə sosial həqiqətə müsbət münasibətinin formalaşması, mənbələrin əks olunması, müqayisəsi və qiymətləndirilməsi vasitəsilə Vətənə dəyərlərinin inkişafıdır. Müxtəlif mənbələrdəki bir hadisənin təsvirini müqayisə etmək, tarixi hadisənin müxtəlif versiyalarının işıqlandırılması, mənbələrdəki ziddiyyətlərin müəyyən edilməsi, eyni məsələdə müxtəlif sənəd növlərinin müqayisə edilməsi, mənbələrin analizi, mənbənin etibarlılığının qiymətləndirilməsi.

Nəticələrin üçüncü səviyyəsi şagirdlərin müstəqil sosial fəaliyyət təcrübəsi, yaradıcı bacarıqlarının (araşdırma, müzakirələr, oyun) inkişaf etdirilməsidir. Fəaliyyətin məqsədinə uyğun olaraq mənbələrin təsnifatı, problemin həlli üçün mənbələrin müqayisəli təhlili metodlarından istifadə etmək, mənbədən tarixi inkişafa alternativləri müəyyənləşdirmək, bütün mübahisə-

li sistemin qurulması, mənbələrin köməyi ilə müzakirələrdə şagirdlərdən birinin mövqeyinin müdafiəsi (4).

Beləliklə, istər dərs, istərsə də dərsdənkənar iş prosesində sənədli materiallarla iş üsullarını təşkil etmək olar.

**Problemin nəzəri əhəmiyyəti.** Məqalədə irəli sürülən nəzəri müddəalar dərsdənkənar tədbirlərdə tarixi sənədlərlə iş üsullarına dair nəzəriyyələri zənginləşdirir. Bu da təlimin keyfiyyətinin yüksəlməsinə səbəb olur.

**Problemin praktik əhəmiyyəti.** Bu məqalənin nəticələrindən tarix müəllimləri tədris prosesində, eləcə də bakalavr və magistratura pilləsində təhsil alan tələbələr elmi araşdırmalarında istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. http://edu.gov.az/upload/file/emre-elave/2016/436/436-sayli-emre-elave09.pdf
2. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal interaktiv təlimi metodikası. Bakı, 2014.
3. Методика обучения истории в средней школе. М., 1978.
4. https://programma-kursa-vneurochnoj-deyatelnosti-rabota-s-istoricheskimi-dokumentami-5-klass

**E-mail**: patriot813@mail.ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* **M.M. Əmirov**, *dos.* **Q.İ. Bəşirov**
**Redaksiyaya daxil olub:** 01.10.2018